İradə BAYRAMOVA
*Biblioqrafiyaşünaslıqkafedrasınınmüəllimi*

# MƏRKƏZLƏŞDİRİLMİŞ KİTABXANA SİSTEMLƏRİNDƏBİBLİOQRAFİKFƏALİYYƏTİN TƏŞKİLİ MƏSƏLƏLƏRİ

***Açar sözlər:****Kitabxana-informasiya təminatı; informasiya resursları; kitabxana fondu; metodik mərkəz*

***Ключевые слова:*** *Библиотечно-информационное обеспечение; информационные ресурсы;библиотечный фонд; методический центр*

***Keywords:****Library-information provision; information resources;the library fond; methodical center*

*Məqalədə MKS-nin fəaliyyəti analiz edilir.Soraq biblioqrafiya aparatının və tələbatçılara biblioqrafik informasiya xidmətinin əsasları şərh edilmişdir. Biblioqrafik proseslərdə İKT-nin tətbiqi də burada izah olunur.*

Giriş: Azərbaycan Respublikasının müstəqillik qazanması, süveren dövlətin inkişaf qanunlarına uyğun olaraq cəmiyyətin bütün sahələrində ciddi dəyişikliklərin baş verməsi milli mədəniyyətin, milli ideologiyanın yeni əsaslar üzərində qurulmasını tələb edir.

Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafına dair qəbul edilmiş dövlət proqramları müvəffəqiyyətlə həyata keçirilmiş və qarşıya qoyulan bir sıra vəzifələr icra olunmaqla, hazırda da bu proseslər davam etməkdədir.

Son illər Azərbaycanda informasiya cəmiyyətinin qurulması istiqamətində görülən işlər sırasında kitabxana işinin təşkili, idarə edilməsi, oxuculara informasiya xidmətində ənənəvi iş üsulları ilə yanaşı müasir texnologiyaların tətbiqinə başlanılması dövlətimizin kitabxana işi sahəsindəki siyasətinin prioritet istiqamətinə çevrilmişdir(5).

Azərbaycan Respublikası Prezidentinin 6 oktyabr 2008-ci il tarixli, 3072 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkşafı üzrə Dövlət Proqramı"ı cəmiyyətin informasiya tələbatının həyata keçirilməsində kitabxanaların rolunu yüksək qiymətləndirmişdir (1).

Kitabxanalarda aparılan biblioqrafik işin keyfiyyətcə yeni səviyyəyə qaldırılması tələbi, biblioqrafik işin əsas vəzifəsi olan geniş oxucu kütləsinin sorğularına operativ cavab vermək, oxucuların biblioqrafik maarifləndirilməsinə kömək etmək məsələləri ilə əlaqədar, kitabxana fondlarında toplanan mədəni xəzinə, elmi-texniki yeniliklər, cari və retrospektiv faktları özündə əks etdirən kitablar, həmçinin, digər çap məhsulları geniş şəkildə



təbliğ edilməlidir. Bu işdə Mərkəzləşdirilmiş Kitabxana Sistemlərinin (MKS) işi əvəzedilməzdir.

SSRİ Mədəniyyət Nazirliyi 3 fevral 1975-ci il tarixində "Kütləvi dövlət kitabxanalarının mərkəzləşdirilməsi haqqında Əsasnamə" təsdiq etdi. Əsasnamədə MKS-lərin yaradılması və formalaşdırılması, onların idarə olunması, oxuculara xidmət işinin keyfiyyət dərəcəsinin artırılması və.s göstərilirdi. Qarşıya qoyulan vəzifələri həyata keçirmək üçün, respublikamızda da kitabxanaların mərkəzləşdirilməsi işinə başlanıldı.

"Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkşafı üzrə Dövlət Proqramı"ına uyğun olaraq, ölkə kitabxanalarında keçirilmiş monitorinqin nəticələri göstərdi ki, Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində 3812(46, 6%) kütləvi kitabxana var.Bu kitabxanaların 576(15, 1%) şəhər yaşayış yerlərində, 3236(44, 8%) kənd yaşayış yerlərində yerləşir. Mədəniyyət və Turizm Nazirliyi sisteminə daxil olan kitabxanaların informasiya resurslarının həcmi cəmi 35528523nüsxə təşkil edir. Şəhər yerlərində fəaliyyət göstərən kütləvi kitabxanaların informasiya resurslarının həcmi 17074881(48, 1%), kənd yerlərində yerləşən kütləvi kitabxanaların fondu isə 18453642(51, 9%) nüsxədir. Bu sistemə daxil olan kitabxanalarda informasiya mənbələrinin növləri üzrə bölgüsünə əsasən kitabların xüsusi çəkisi 98, 4%-dir. Müvafiq olaraq jurnalların 0, 6%, qəzetlərin 0, 9% və digər materialların 0, 1% olması məlum olur.Kütləvi kitabxanalarda informasiya mənbələrinin dillər üzrə bölgüsünə əsasən, fondun 50, 8%-iazərbaycan dilində latın qrafikası ilə, 27, 7%-i isə azərbaycan dilində kiril qrafikası ilə olan ədəbiyyatdır (3, s.3-14).

Cəmiyyət inkişaf etdikcə, onun strukturunda ciddi dəyişikliklər baş verdikcə, cəmiyyət üzvlərinin mədəni səviyyəsi yüksəldikcə, ixtisaslı, hərtərəfli inkişaf etmiş oxucuların sayı çoxaldıqca, kütləvi kitabxanaların qarşısında daha mühüm vəzifələr dayanır. Böyük strateji əhəmiyyət kəsb edən kitabxana işinin mərkəzləşdirilməsi, ölkədə elmi-texniki inqilabın daha da inkişafı və elmi məlumata tələbatın obyektiv şəkildə artması ilə şərtləşən yeni mərhələ idi.

Əsas hissə. Mərkəzləşdirilmiş Kitabxana Sisteminin yaradılması kiçik kitabxanaların vahid sistemdə birləşdirilməsi yolu ilə onların ehtiyatlarını və qüvvələrini mərkəzləşdirməyə, vahid kitab fondu və SBA yaratmağa, oxuculara operativ informasiya xidməti göstərməyə imkan yaratdı. Kitabxana işinin inkişafında keyfiyyətcə yeni mərhələ olan mərkəzləşmə nəticəsində hər bir şəhərdə və rayonda filial sistem-yəni əvvəllər müstəqil fəaliyyət göstərən kitabxanalardan müqayisə edilməz dərəcədə böyük üstünlüklərə malik olan vahid kitabxana müəssisələri yaradılmışdır. Mərkəzləşdirilmiş kitabxanalar bir-birindən ayrılıqda deyil, bir-biri ilə əlaqədar, bir-birini tamamlayan vahid sistem kimi fəaliyyət göstərir. Zəngin və böyük fonda, güclü SBA-na, informasiya işinin təşkili imkanına malik olan mərkəzləşdirilmiş sistemlər

əhaliyə biblioqrafik xidmət prosesini keyfiyyətcə yeni mərhələyə qaldırdı. Mərkəzləşmə kütləvi kitabxana şəbəkələrinin idarə olunmasına, kitabxanalarda əməyin elmi əsaslar üzərində yenidən qurulmasına səbəb oldu. Mərkəzi kitabxana ilə filiallar arasında daha operativ əlaqənin yaranması oxucu sorğularının daha operativ ödənilməsinə şərait yaradır.

Mərkəzləşdirilmiş Kitabxana Sistemi iriləşdirilmiş, yeni tipli kitabxana müəssisəsi olub, struktur cəhətdən bütöv, ümumi fond və vahid texnologiya əsasında fəaliyyət göstərən, bir-biri ilə üzvi şəkildə qarşılıqlı əlaqədə olan kitabxanaların və kitabxana birliklərinin məcmusudur.Bu sistem ayrı-ayrılıqda fəaliyyət göstərən xırda kitabxanaların mexaniki birliyi yox, insanların təhsilində, tərbiyəsində, mədəni inkişafında, informasiya təminatındayaxından iştirak edən, ölkə miqyasındakitabxana xidmətini həyata keçirən keyfiyyətcə yeni orqanizmdir(4, s.210-211).

MKS-lər öz fəaliyyətlərində Azərbaycan Respublikasının Konstitusiyasını, "Mədəniyyət haqqında" və "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının qanunlarını, digər qanunvericilik aktlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi haqqında Əsasnaməsini, Nazirliyin əmr, sərəncam və Kollegiya qərarlarını, şəhər (rayon) İcra Hakimiyyətinin əmr və sərəncamlarınırəhbər tutur (6).

Mərkəzləşdirilmiş Kitabxana Sisteminin tərkibinə aşağıdakı struktur bölmələr daxildir: - şəhər (rayon) Mərkəzi kitabxanası; - şəhər (rayon) Uşaq kitabxanası; - şəhər kitabxana filialları; - qəsəbə kitabxana filialları; - kənd kitabxana filialları;

Mərkəzləşdirilmiş Kitabxana Sisteminin fəaliyyətinin predmeti informasiya, elm, mədəni-maarif və təhsil işidir. Bu işə ilk növbədə fondların formalaşdırılması, elmi cəhətdən işlənməsi və mühafizəsi, kitabxanalardan istifadə edənlərə kitabxana, informasiya və sorğu-biblioqrafiya xidmətlərinin göstərilməsi, kitabxanalararası və beynəlxalq abonementin təşkili, kitabxanaların elmi və metodik təminatı daxildir.

Mərkəzləşdirilmiş Kitabxana Sistemi özünün əsas fəaliyyətinə və onun məqsədlərinə müvafiq olaraq, fondların komplektləşdirilməsini, sistemləşdirilməsini, elmi və texniki cəhətdən işlənməsini, qorunub saxlanmasını, fondlardan tam istifadə edilməsini həyata keçirir. Kitabxanadan istifadə edənlərə kitabxana, informasiya, biblioqrafiya xidmətləri sistemini təşkil etməklə, fonda daxil olan kitablardan, digər mətbuat nümunələrindən, səs yazılarından, habelə müxtəlif informasiya daşıyıcılarından əhalinin kütləvi istifadəsini təşkil edir. İnformasiya və sorğu-biblioqrafiya işləri aparır, ənənəvi, habelə elektron kataloq və kartotekaları, habelə informasiyanın əks etdirilməsi, axtarışı və istifadəsi üçün elektron vasitələri əhatə edən informasiya-axtarış sistemini yaradır və onu daim təkmilləşdirir. Biblioqrafik



göstəriciləri və informasiya nəşrlərini həm müstəqil şəkildə, həm də başqa müəssisələrlə birlikdə hazırlayır və nəşr edir. Ktabxanalara metodik məsləhətlər verir və s. köməklik göstərir.

Mərkəzləşdirilmiş Kitabxana Sistemləriinformasiya tələbatçılarının sənədlərdən sərbəst istifadə etmək imkanını təmin etməklə, əhatə etdiyi şəhərin (rayonun) ərazisindəki bütün yaşayış məntəqələrində əhalinin bütün təbəqələrinə kitabxana və informasiya xidmətini həyata keçirir. Mərkəzləşdirilmiş Kitabxana Sistemləri tələbatçılara kitabxana xidmətinin təşkilində kitabxana sahəsinin bütün mütərəqqi formalardan istifadə etməklə, cəmiyyətin informasiyaya olan tələbatını təmin edir, şəxsiyyətin peşə, təhsil və ümumi mədəni inkişaf səviyyəsinin artırılmasına kömək edir. Eyni zamanda kitabxana fonduna daxil olan yeni ədəbiyyat haqqında oxuculara mütəmadi şəkildə informasiya verir. Oxucu sorğularını nəzərə almaqla kitabxana fondunun komplektləşdirilməsini, daxil olan ədəbiyyatın kitabxana qaydası ilə işlənməsini və onların kitabxana filialları arasında bölüşdürülməsini təşkil edir. Kitabxana filiallarına təşkilati, metodik və biblioqrafik köməkliyin göstərilməsini həyata keçirir (6).

Elmin inkişafı, onun yeni problemlərinin yaranması biblioqrafik xidmətin təşkilinə, forma və məzmununa tələbatın artması zərurətini yaradır. Bu işdə isə biblioqrafiyanın əsas vəzifəsi oxucuya onu maraqlandıran ədəbiyyata dair tam, dolğun, dəqiq və operativ məlumatı çatdırmaqdır. Bunun üçün isə hər bir kitabxanada olduğu kimi, MKS-də də biblioqrafik işi düzgün təşkil etmək və elmi şəkildə əsaslandırılmış soraq-biblioqrafiya aparatıyaratmaq lazımdır.

MKS-də biblioqrafik fəaliyyətin təşkili dedikdə, bütün biblioqrafik vasitələrdən istifadə etməklə, kitabxananın öz vəzifələrini müvəffəqiyyətlə yerinə yetirilməsinə yönəldilmiş kompleks tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur (2, s.4).

Bu işin təşkilati-funksional quruluşu bir sıra xarici və daxili amillərdən asılıdır. Birinciyə kitabxananın tipi, onun əsas vəzifələri, idarə mənsubiyyəti, fərdi və kollektiv abonentlərin tərkibi və fondun həcmi daxildir. Daxili faktorlardan aşağıdakıları göstərmək olar: fondun miqdarı, ştatda olan işçilərin sayı, onların peşə hazırlığının səviyyəsi, avtomatlaşdırma vasitələrindən istifadə dərəcəsi.

MKS-də biblioqrafik fəaliyyətin əsas istiqamətlərinə aşağıdakılar daxildir:

1. Soraq-biblioqrafiya aparatının (SBA) təşkili;
2. Biblioqrafik vəsaitlərin tərtibi;
3. Biblioqrafik informasiya xidməti;
4. Soraq-biblioqrafiya xidməti;
5. Tövsiyə biblioqrafiya fəaliyyəti;
6. Metodiki iş və məsləhətlər;

7. Biblioqrafik biliklərin təbliği;

8. Kitabxanaların elmi-tədqiqat fəaliyyəti (2, s.8).

Mərkəzləşdirilmiş Kitabxana Sistemindədə biblioqraifk fəaliyyətin səmərəli təşkili üçün aşağıdakılar nəzərə alınır: Biblioqrafik işin elmi əsaslandırılmış planlaşdırılması; şöbələr arasında səmərəli iş bölgüsü; kadrların düzgün yerləşdirilməsi; biblioqrafiya işinin əlaqələndirilməsi; əməyin elmi təşkili; biblioqrafik proseslərə normaların tətbiqi; əməkdaşların ixtisaslarının artırılması.

MKS-də biblioqrafik işin təşkilinin aşağıdakı özünəməxsus xüsusiyyətləri vardır:

1. Bütün sistem üzrə biblioqrafik fəaliyyətə rəhbərlik edən Mərkəzi kitabxananın təşkiledici rolu;

2. Ayrı-ayrı biblioqrafik proseslərin mərkəzləşdirilmiş şəkildə yerinə yetirilməsi;

3.Sistemin yarımbölmələrinin ixtisaslaşmış fəaliyyəti;

4.Texnoloji sənədlərin vahidləşdirilməsi;

5.Sistemin Mərkəzi kitabxanası ilə, filial kitabxanaları arasında ciddi istehsalat əlaqəsinin olması.

MKS-in Biblioqrafiya şöbələri öz işini vahid plan əsasında aparmaqla, hər il görəcəyi işi planlaşdırır və bu plan əsasında da fəaliyyət göstərir.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 oktyabr 2011-ci il tarixli 162 saylı "Azərbaycan Respublikasının şəhər (rayon) mərkəzləşdirilmiş kitabxana sistemlərinin, müstəqil kitabxanaların, şəhər, qəsəbə və kənd kitabxana filiallarının, habelə şəhər, qəsəbə kütləvi, uşaq və gənclər kitabxanalarının nümunəvi strukturu və ştat vahidləri"nin təsdiq edilməsi haqqında qərarına və Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin 3213\19 saylı məktubuna əsasən Mərkəzi kitabxananın nəzdində 2 yeni şöbə yaradılmışdı:

1. Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması şöbəsi;

2. İnformasiya-resurs şöbəsi (7).

Kitabxanaların kompüter texnologiyaları ilə təmin olunması, onların veb-saytlarının yaradılması və internetə qoşulması, informasiya mənbələrinin elektron informasiya daşıyıcılarına köçürülməsi biblioqrafik fəaliyyətin keyfiyyətinin yaxşılaşdırılmasına müsbət təsir edir.

MKS-lərdə soraq biblioqrafiya aparatı (SBA) biblioqrafik fəaliyyətin əsas bazası hesab edilir. SBA-nın əsas məqsədi kitabxana fondunu tam əks etdirməkdən ibarətdir. SBA kitabxananın xidmət göstərdiyi rayonun profili və onun oxucu kontingentinə təsir göstərir. SBA-nın tərkibinə müxtəlif məlumat nəşrləri, biblioqrafik nəşrlər, eləcə də kitabxanada tərtib olunan kartotekalar, yazılı arayışlar daxildir.

Bütün bunlarla yanaşı biblioqrafik fəaliyyətin təşkilində Mərkəzləşdirilmiş Kitabxana Sistemi üçün eyni olan bir sıra faktorlar vardır. Mərkəzləşdirilmiş Kitabxana Sistemində xüsusi metodiki-biblioqrafiya şöbəsi yaradılır. Bununla əlaqədar olaraq, biblioqrafik sistemin təşkili yeni keyfiyyətlər kəsb etməyə başlayır. Mərkəzləşdirilmiş Kitabxana Sistemində biblioqrafik fəaliyyətin müasir vəzifələri onun təşkilinə, həcminə və eləcə də kitabxanaçının hazırlıq dərəcəsinə qarşı yeni tələblər irəli sürür.



Kütləvi kitabxanaların mərkəzləşdirilməsi soraq-biblioqrafiya və biblioqrafik informasiya xidmətinin keyfiyyətini daha da artırmağa, mərkəzi kitabxana ilə filialların vəzifələrini dəqiqləşdirməyə, daha təkmilləşdirilmiş soraq-biblioqrafiya aparatının təşkilinə, başqa sistem və idarə kitabxanalarının biblioqrafik fəaliyyətlərini əlaqələndirməyə imkan verir. Mərkəzləşdirilmiş Kitabxana Sisteminin biblioqrafik fəaliyyəti biblioqrafiya şöbəsi tərəfindən işlənmiş vahid plan əsasında aşağıdakı istiqamətlərdə aparılır:

Soraq-biblioqrafiya aparatının təşkili, soraq və biblioqrafik informasiya xidməti, mütaliəyə rəhbərlikdə tövsiyə vəsaitlərindən istifadə olunması, filiallara metodiki köməklik, kitabxana işçilərinin biblioqrafik ixtisasının artırılması, biblioqrafik biliklərin təbliği (2, s.22).

Sistemin bütün kitabxanaları gördükləri biblioqrafiya işləri haqqında vaxtaşırı olaraq vahid formada mərkəzi kitabxanaya hesabat verməlidirlər.

Mərkəzləşdirilmiş Kitabxana Sisteminin biblioqrafiya şöbələri sistemin bütün oxucularına biblioqrafik xidmət göstərir. Biblioqrafiya şöbəsi filiallarla birlikdə soraq-biblioqrafiya aparatının tərkibini müəyyənləşdirir, filalların bütün sistem üzrə biblioqrafiya işlərinin əlaqələndirilməsini təşkil edir.

Mərkəzi Kitabxana başqa idarə kitabxanalarının biblioqrafik fəaliyyətlərinin əlaqələndirilməsini həyata keçirir ki, bu da oxuculara biblioqrafik xidmətin keyfiyyətini yaxşılaşdırır, təkrarçılıq və paralelizmi aradan qaldırır. Kitabxanalar arasında biblioqrafik fəaliyyətin inkişaf etdirilməsinin əsas mənbəyi şəhər və rayonlarda xüsusi əlaqələndirmə şuralarının yaradılmasıdır.

Mərkəzləşdirilmiş Kitabxana Sistemindəbiblioqrafiya işinin optimal təşkili, həm də texnoloji proseslərin normativləşdirilməsindən və işçilərin dəqiq iş rejimindən də asılıdır.

Ümumiyyətlə, hər bir Mərkəzləşdirilmiş Kitabxana Sisteminin təşkili və fəaliyyəti aşağıdakı sənədlərlə tənzimlənir.

1. Dövlət kütləvi kitabxanalarının mərkəzləşdirilməsi haqqında Əsasnamə;

2. Mədəniyyət orqanlarının əmr və sərəncamları;

3. Metodiki mərkəzlərin tövsiyələri;

4. Mərkəzi Kitabxana, MUK və kitabxana-filiallar haqqında Əsasnamə;

5. Şöbələr, bölmələr, qruplar haqqında Əsasnamə;

6. MKS işçilərinin vəzifə təlimatları;

7. Kitabxanadan istifadə qaydaları;

8. Daxili əmək intizamı qaydaları;

9. Əsas texnoloji proseslərin təşkili üzrə təlimatlar (2, s.34).

Mərkəzləşdirilmiş Kitabxana Sisteminin quruluşu oxuculara kitab verilişinin tərkibindən və miqdarından, sistemə daxil olan kitabxana filialların sayından asılıdır. Mərkəzləşdirilmiş Kitabxana Sisteminin baş müəssisəsi hər rayonun özünün Mərkəzi Kitabxanası hesab olunur. O bütün kitabxanaların fəaliyyətinə rəhbərlik edir: mərkəzləşdirilmiş sistemin işinə dair plan və hesabatları tərtib edir, müəyyən müddətdə onları baxılmaq və təsdiq etmək üçün mədəniyyət şöbəsinə təqdim edir; yeni ədəbiyyatın komplektləşdirilməsini və işlənməsini mərkəzləşdirilmiş şəkildə həyata keçirir, onların uçotunu və operativ şəkildə kitabxana-filiallara çatdırılmasını təmin edir; sistemin bütün oxucularının istifadə etməsi üçün mərkəzi kataloq və kartotekalar təşkil edir, informasiya bülletenləri çap etmək, yerli mətbuatda siyahılar dərc etmək yolu ilə MKS-in fondunda olan ədəbiyyatın təbliğini təşkil edir; ümumiləşdirir, yayır və tətbiqinə nəzarət edir; kitabxana filialların bədii tərtibat işinə kömək edir, onların avadanlıq və kitabxana texnikası ilə təmin edilməsi üçün cavabdeh olur; yuxarı metodik mərkəzlə, digər idarə və sistemlərin kitabxanaları və Mərkəzləşdirilmiş Kitabxana Sistemləri ilə əlaqəni həyata keçirir.

Mərkəzi kitabxanaların əsas struktur bölmələri əsasən eynidir:

1. Oxuculara xidmət şöbəsi;
2. Komplektləşdirmə və kitabişləmə şöbəsi;
3. Metodiki və biblioqrafiya şöbəsi;
4. Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması şöbəsi;
5. İnformasiya-resurs şöbəsi;
6. Şəhər(rayon) Mərkəzi Kabxanasının Uşaq şöbəsi.

Yerli şəraitdən asılı olaraq oxuculara fərqli xidməti təkmilləşdirmək məqsədilə bəzi Mərkəzi kitabxanalarda ixtisaslaşdırılmış bölmə və şöbələr yaradılmışdır.

2006-cı ildə qəbul edilmiş mühüm sənəd kimi "2006-2016-cı illər üçünmədəniyyət sahəsində Dövlət İnkişaf Konsepsiyası" mədəniyyət sahələrində inqilabi dönüş nöqtəsi olmuşdur. "Konsepsiya"da bütün sahələrdə olduğu kimi kitabxana-informasiya şəbəkəsinin modernləşdirilməsi istiqamətində mühüm əhəmiyyət daşıyan Dövlət Proqramının qəbul edilməsi ilə kitabxana quruculuğunun yeniləşdirilməsi, müasir standartlara və tələbata uyğunlaşdırılması məsələsi başlıca vəzifələrdən biri kimi qarşıya qoyulmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 12.01.2004 il tarixli "Azərbaycan dilində latın qrafikalı nəşrlərin həyata keçirilməsi haqqında" sərəncamı ilə nəşr olunmuş ədəbiyyatlar Mərkəzləşdirilmiş Kitabxana Sistemlərinin fondunamüntəzəm olaraq daxil olur.

Mərkəzləşdirilmiş Kitabxana Sistemlərində işin təşkili, fondun yeni ədəbiyyat üzrə komplektləşdirilməsi sahəsində Mədəniyyət və Turizm Nazirliyi və M.F.Axundov adına Milli Kitabxana tərəfindən verilmiş göstərişlərin və tövsiyələrin əhəmiyyəti böyükdür.



Mərkəzləşdirilmiş Kitabxana Sistemlərində müvafiq iş planına uyğun olaraq fonda daxil olmuş yeni ədəbiyyatın komplektləşdirilməsi, uçotu və təbliği ilə əlaqədar tədbirlər həyata keçirilir. Həmçinin fondu əhatə edən çap əsərlərindən digər informasiya daşıyıcılarından istifadə etməklə kitabxana, biblioqrafiya və infomasiya xidmətləri göstərilir.

Əhaliyə kitabxana-biblioqrafiya xidmətinin təşkili məqsədilə Mərkəzləşdirilmiş Kitabxana Sistemlərində kitabxana proseslərinin məzmun etibarı ilə yeniləşməsi məqsədilə müxtəlif tədbirlər keçirilir. Bu məqsədləmüntəzm olaraq oxucu qrupları təhlil edilir, onların maraqları öyrənilərək müvafiq kütləvi iş aparılır. Oxuculara xidmətin operativ təşkili məqsədilə onların müxtəlif istiqamətlərdəki sorğularının yerinə yetirilməsi, fondların mühafizəsi işləri aparılır, kütləvi tədbirlər keçirilir.

Mərkəzləşdirilmiş Kitabxana Sistemlərinə müxtəlif mənbələrdən müntəzəm ədəbiyyat daxil olur: Prezidentin sərəncamına əsasən, M.F.Axundov adına Milli Kitabxanadan, ABŞ səfirliyindən, Mədəniyyət və Turizm Nazirliyindən, Mədəniyyət və Turizm şöbəsindən, F.Köçərli adına Uşaqkitabxanasından, Həmkarlar İttifaqından, müəlliflər tərəfindən və s.

Mərkəzləşdirilmiş Kitabxana Sistemində biblioqrafik işin təşkili məsələlərindən bəhs edərkən, birinci növbədə sistemin SBA-nın təşkili və onun tərkib hissələrindən ayrı-ayrılıqda danışmaq lazımdır.

Mərkəzləşdirmə sistemində biblioqrafiyanın bu və ya digər problemləri təcrübədə müxtəlif cür həll edilir. Öz əhəmiyyətinə görə mərkəzi və vacib problemlərdən biri hər bir kitabxanada SBA-nın təşkilidir. Müasir nəzəri baxışlara görə kitabxananın biblioqrafik fəaliyyəti bütövlükdə onun informasiya resurslarının idarə olunması və səmərəli istifadəsinin əsas vasitəsidir. Elmi əsaslar üzrə təşkil edilmiş soraq-biblioqrafiya aparatı vasitəsilə kitabxananın bütün biblioqrafik iş prosesləri-oxuculara soraq-biblioqrafiya, biblioqrafik informasiya xidməti, tövsiyə biblioqrafiya fəaliyyəti, biblioqrafik biliklərin təbliği və müxtəlif xarakterli biblioqrafik, faktoqrafik sorğular yerinə yetirilir.

Mərkəzləşdirilmiş Kitabxana SistemindəSBA-nın tərkibinə aşağıdakılar daxildir:

1.Soraq və biblioqrafik nəşrlər fondu;
2. Kataloq və kartoteka sistemi.

SBA-nın bu günkü tərkibi uzun illər davam edən tarixi inkişafın nəticəsidir. Əvvəllər SBA kitabxana fondunun məzmun və tərkibini açan kataloqlardan ibarət idi. Daha sonralar SBA-nın tərkibinə müxtəlif məlumat nəşrləri, biblioqrafik nəşrlər, eləcə də kitabxanada tərtib olunan kartotekalar, daha sonralar isə əvvəllər yerinə yetirilmiş yazılı arayışlar da daxil edilirdi. SBA-nın funksiyaları çox müxtəlifdir və kitabxana fəaliyyətinin bütün istiqamətlərində ondan istifadə olunur. Fondun təbliğində, biblioqrafik informasiya və soraq-biblioqrafiya xidmətində, biblioqrafik vəsaitlərin tərtibi prosesində, kitabxananın metodiki işində SBA-nın rolu əvəzedilməzdir.

Mərkəzləşdirilmiş Kitabxana SistemindəMəkəzi Kitabxananın soraq və biblioqrafik nəşrlər fondu dörd tərkib hissədən ibarətdir. Bu fond metodiki-biblioqrafiya şöbəsində açıq rəf üsulu şəraitində yerləşdirilmişdir. Soraq nəşrlərinin vahid nüsxələri oxucular tərəfindən yalnız kitabxananın daxilində istifadə edilir və evə verilmir.

MKS-dəmərkəzi kitabxananın soraq və biblioqrafik nəşrlər fondunun birinci tərkib hissəsini əsas və direktiv xarakterli nəşrlər, ikinci qrup materiallara məlumat nəşrləri, üçüncü qrupa biblioqrafik nəşrlər, dördüncü qrupun tərkibinə ödənilmiş arayışlar fondu daxildir.

Soraq və biblioqrafik nəşrlər fondunun məlumat nəşrləri daha zəngindir. Fondun bu həssəsində soraq ədəbiyyatı öz xarakterinə görə müxtəliflik kəsb edir. Belə ki, fondda universal və sahəvi xarakterli ensiklopediyalar, ensiklopedik lüğətlər, ümumi və xüsusi xarakterli məlumat kitabları və lüğətlər mövcuddur. Məsələn, Azərbaycanın Milli Ensiklopediyası, Azərbaycan Sovet Ensiklopediyası 10 cilddə, başqa respublikalara həsr olunmuş bir cildlik ensiklopediyalar vardır. MKS-lərin əksəriyyətində belə nəşrlər oxu zalında saxlanılır.

Soraq və biblioqrafik nəşrlər fondunun tərkib hissələrindən biri də müxtəlif lüğətlərdir. Belə lüğətlərdən "Azərbaycanca-rusca lüğət"in bir və iki cildliyini, "Azərbaycan dilinin izahlı lüğəti"ni (2 cilddə), "Azərbaycan dilinin orfoqrafiya lüğəti"ni göstərmək olar.

MKS-də Mərkəzi Kitabxananın soraq və biblioqrafik nəşrlər fondunda müxtəlif tipli məlumat kitablarının toplanmasına da xüsusi fikir verilir. Belə kitablardan "Təbliğatçının məlumat kitabı", "Tibb işçisinin məlumat kitabı", "Kitabxanaçının məlumat kitabı"nı qeyd etmək olar. Kitabxananın soraq və biblioqrafik nəşrlər fondunda biblioqrafik vəsaitlərin toplanmasına da diqqət verilir. Burada olan vəsaitlərin əksəriyyəti Azərbaycanla bağlıdır. Azərbaycanın şair və yazıçılarının həyat və yaradıcılığı haqqında tərtib edilmiş şəxsi biblioqrafik göstəricilərdən S.Vurğuna, M.A.Dadaşzadəyə, M.S.Ordubadiyə, M.Füzuliyə, N.Gəncəviyə, E.Əfəndiyevə, İ.Əfəndiyevə, Mir Cəlala həsr olunmuş göstəricilər oxucuların sorğularını ödəməkdə böyük əhəmiyyətə malikdirlər. Azərbaycan ədəbiyyatı nümayəndələrinə, görkəmli elm və mədəniyyət xadimlərinə həsr edilmiş şəxsi göstəricilərin əksəriyyəti fondda əks olunmuşdur. Burada həmçinin "Mətbuat salnaməsi", "Birillik Azərbaycan kitabiyyatı", "Azərbaycan kitabı"nın I cildi, II cildin I kitabı, "Azərbaycan ədəbiyyatşünaslığı (1920-1975)", "Azərbaycan kitabxanaları XXI əsrin informasiya məkanında" adlı vəsaitlər də mövcuddur.

MKS-lərinMərkəzi kitabxanalarının biblioqrafik xidmətlə məşğul olan işçiləri mütəxəssislər, idarə və müəssisələr tərəfindən verilmiş mürəkkəb mövzu sorğularını sistemli şəkildə yerinə yetirirlər. Belə mürəkkəb sorğulara isə geniş mövzulu ədəbiyyat siyahıları şəklində yazılı cavab verilir.

Ödənilmiş sorğular MərkəziKitabxanada üzərinə "Ödənilmiş arayışlar



fondu" yazılmış jurnalda qeyd olunur. Jurnalda ayrılmış xüsusi qrafalarda mövzunun adı, mövzunun yerinə yetirilməsində istifadə olunan mənbə, sorğunun nə vaxt daxil olması, ödənilməsi tarixi, sorğunu yerinə yetirən biblioqrafın adı, soyadı qeyd olunur. Ödənilmiş arayışlardan sonralar kitab sərgilərinin, mövzu gecələrinin, oxucu konfranslarının, biblioqrafik xülasələrin və digər tədbirlərin keçirilməsində istifadə olunur. İqtisadi rayonların MKS-də ödənilmiş arayışlar fondunun yaradılmasında əsas məqsəd, bibloqrafların təkrar sorğulara artıq vaxt sərf etməsinin qarşısını almaq və oxuculara operativ cavab verməkdən ibarətdir.

MKS-də kataloqların tərtibi də mərkəzləşdirilmişdir. Belə ki, sistemin bütün filiallarına kitablarla birlikdə kataloq tərtib etmək üçün onların kartoçkaları da hazır şəkildə göndərilir, hər bir kitabdan hansı filiala göndərildiyi mərkəzi kitabxananın əlifba kataloqunda qeyd olunur.

MKS-də tərtib edilən kataloqlardan biri də sistemli kataloqdur. Ədəbiyyat təsnifləşdirilərkən rubrikaların çox olmasına və hər bir rubrikanın arxasında konkret ədəbiyyatın toplanmasına cəhd göstərilir. MKS-də SBA-nın tərkib hissələrindən biri də biblioqrafik kartotekalardır.

Məlumdur ki, bütün oxucu qrupları dövri nəşr materiallarına operativ şəkildə müraciət edirlər. Buna görə də oxucu sorğularının tam ödənilməsində kataloqlarla yanaşı kartotekaların da rolu böyükdür.

MKS-də kartotekaların təşkili ilə biblioqrafiya və xidmət şöbələrinin işçiləri məşğul olur. Öz xarakter və məzmununa görə kartotekaların dörd növü mövcuddur:

Məqalələrin sistemli kartotekası;

Mövzu kartotekası;

Xüsusi kartoteka;

Diyarşünaslıq kartotekası(2, s.88).

MKS-in Mərkəzi kitabxanalarında yaradılan məqalələrin sistemli kartotekası sistemli kataloqun quruluşuna uyğun şəkildə təşkil edilmişdir. Lakin burada hər bir mövzunun daxilində kartoçkalar əlifba üzrə deyil, əks xronoloji qaydada düzülmüşdür. Bir qayda olaraq bu kartotekaya ancaq MKS-in abunə olduğu dövrü nəşrlərdən götürülmüş məqalələr daxil edilir. Bura respublika əhəmiyyətli və yerli dövri nəşrlər aiddir.

MKS-dəMərkəzi kitabxanalarda təşkil edilən maraqlı kartotekalardan biri də diyarşünaslıq kartotekasıdır. Bu kartotekada hər bir rayonun tarixi, iqtisadiyyatı, görkəmli şəxsləri, şəhərdə fəaliyyət göstərən idarə və müəssisələr və mədəni quruculuğu haqqında materiallar verilmişdir. Onu da qeyd etmək lazımdır ki, bu kartoteka oxucuların ən çox istifadə etdikləri kartotekadır. Bu kartotekanın daha da təkmilləşdirilməsi məqsədilə ən yeni materialları operativ şəkildə oxuculara çatdırmaq üçün kitabxana işçiləri böyük səy göstərirlər. Həm yerli rayon qəzetlərində, həm də respublika qəzetlərində bölgə ilə bağlı materiallar seçilir, kartotekada əks olunur və kartotekanın

tamlığına çalışılır. Buna görə də iqtisadi rayonların mərkəzi kitabxanalarının metodika və biblioqrafiya şöbələrində kartotekanın vəziyyəti dəfələrlə müzakirə edilmişdir.

Kompüter texnologiyasının kitabxana-biblioqrafiya proseslərinə tətbiqi, İnternet əlaqələrinin genişlənməsi, elektron informasiya daşıyıcılarının ildən-ilə artması MKS-lərdə də bu işlə məşğul olan şöbələrin açılması zərurətini yaradır.

Burada kompüter haqqında anlayış almaq, İnternetdə olan hər hansı bir məlumatı əldə etmək, kompüter, İnternet və ingilis dili kurslarından istifadə etmək olar. İlk növbədə bu kurslar kitabxana işçilərinə keçirilir ki, bu onların kompüter biliklərinə yiyələnməsinə köməklik məqsədi daşıyır. Gələcəkdə elektron kitabxana sisteminin yaradılması üçün nəzərdə tutulur.

MKS-də də biblioqrafik xidmət iki əsas istiqamətdə aparılır:

Soraq-biblioqrafiya xidməti;

Biblioqrafikinformasiyaxidməti (2, s.136).

Soraq-biblioqrafiya xidməti (SBX)sorğu-cavab rejimində aparılan biblioqrafik xidmətdir. SBX-i zamanı kitabxanaya daxil olan müraciət sorğu, cavab olaraq verilən məlumat arayış adlandırılır. Bütün sorğu və arayışlar hər şeydən əvvəl biblioqrafik və faktoqrafik adı altında iki yerə bölünür.

Biblioqrafik sorğu biblioqrafik məlumatın verilməsini tələb edir. Faktoqrafik sorğuya cavab olaraq biblioqraf, konkretfakt, məlumat, hadisə haqqında informasiya verir. Biblioqrafik və faktoqrafik sorğular şəxsi təhsilə, təhsilə, istehsalat və elmi işə kömək məqsədilə verilə bilər.

MKS-də SBX-nin keyfiyyəti və operativliyi aşağıdakı amillərdən çox asılıdır:

1. Kitabxanada SBA-nın vəziyyəti;
2. SBX-i sahəsində başqa kitabxanalarla qaşılıqlı fəaliyyət səviyyəsi;
3. Biblioqrafın təcrübəsi və ixtisası;
4. Oxucunun biblioqrafik savadı(2, s.166) .

SBX-i kitabxananın ümumi fəaliyyətinin mühüm sahəsi olmaqla, xarakter və məzmununa, məqsəd və vəzifəsinə görə kitabxana işinin digər sahələrindən öz operativliyiilə fərqlənir.

Biblioqrafiyaşünaslıqda biblioqrafik sorğu və arayışların təsnifləşdirilməsində müxtəlif meyarlardan istifadə olunur. Onlardan biri verilən arayışların formasıdır. Bu əlamətə görə arayışlaryazılı və şifahi olur. Şifahi arayışların verilməsində əsas tələb yığcamlıq və dəqiqlikdir. Yazılı arayışlar isə kitabxananın xüsusi blanklarında tərtib olunur.

Biblioqrafik arayışlar sorğunun məqsədindən asılı olaraq üç əsas növə bölünür:

1.Mövzu arayışı;
2.Biblioqrafik dəqiqləşdirmə arayışı;
Biblioqrafik ünvan arayışı (2, s.165).



MKS-də oxuculara SBX-i göstərilən qaydalar əsasında aparılır. Belə ki, oxucu sorğularını dahasəmərəli yerinə yetirmək üçün bölgələrdə MKS-in tərkibində hər bir filial ərazisində yerləşən idarə və müəssisənin profili üzrə müəyyən elm sahəsinə görə ixtisaslaşmışdır. Həmin filial SBA-nın təşkilində, fondun komplektləşdirilməsində bu məsələni daim nəzərə alır.

MKS-də soraq-biblioqrafiya xidməti pilləli xarakter daşıyır. Yəni daha sadə sorğular sistemin aşağı pilləsində öz həllini tapır. Arayışların əsas hissəsi mərkəzi kitabxananın biblioqrafiya şöbəsinin öhdəsinə düşür və nəhayət xüsusi professional sorğular isə həmin ərazidə yerləşən sahəvi elmi kitabxanalar tərəfindən yerinə yetirilir. Çünki mərkəzləşdirmə SBX-i sisteminin bütün kitabxanaları ilə qarşılıqlı əlaqə şəklində yerinə yetirilməyə imkan verir. Lakin təcrübə göstərir ki, sistemin aşağı pilləli məlumat orqanları daha fəal SBX-i aparırlar. Heç təsadüfi deyildir ki, MKS-də yerinə yetirilən arayışların yarıdan çoxu onların payına düşür.

MKS-də istər mərkəzi kitabxana, istərsə də kitabxana filiallar SBX-i zamanı müxtəlif növ arayışları yerinə yetirirlər. Məlumdur ki, hər bir arayışın yerinə yetirilməsi prosesində SBA-nın müxtəlif hissələrinə müraciət olunur.

Mövzu arayışı-müəyyən bir mövzu üzrə biblioqrafik məlumatı özündə əks etdirən biblioqrafik arayışdır. SBX-də mövzu arayışı aparıcı yer tutur. Belə ki, kitabxana təcrübəsindən məlumdur ki, il ərzində oxuculara verilən arayışların 50%-dən 80%-ə qədərini mövzu arayışları təşkil edir.

Məqsəd istiqamətinə görə mövzu arayışları iki qrupa bölünür:

1. Elmi, ixtisas və istehsalat işinə kömək məqsədilə verilən arayışlar;
2.Təhsilə, şəxsi təhsilə və təbliğat işinə kömək məqsədilə verilən arayışlar (2, s.170).

Mövzu arayışlarının təsnifləşdirilməsində əsas əlamət kimi onların məzmunları götürülür. Bu əlamətə görə arayışlar elmi-təbii, texniki, ədəbiyyat, incəsənət, tarixvə ya ölkəşünaslıq arayışlarına bölünür.

MKS-də mövzu arayışlarının müxtəlif elm sahələri üzrə qruplaşdırılması «Arayışların uçotu və biblioqrafik məsləhətlər» jurnalında qeyd olunur. Bu SBX-nin sahələr üzrə təkmilləşdirilməsinə və eləcə də biblioqrafik ehtiyatların formalaşdırılmasına imkan verir.

Mövzu arayışının hazırlanmasında ədəbiyyatın seçilməsinə verilən ümumi tələblər keyfiyyət, məzmun və formal meyarlara düzgün riayət olunmalıdır. Mövzu arayışını yerinə yetirərkən keyfiyyətli seçmə meyarı ədəbiyyatın elmi və təcrübi əhəmiyyətini nəzərə almaqdır. Məzmun və formal meyarların yerinə yetirilməsi isə arayışın oxucu və məqsəd istiqamətindən asılı olur.

Seçilmiş materiallar (sənədlər) dövlət standartına uyğun olaraq təsvir edilir, imkan daxilində mövzu arayışı oxucu və məqsəd istiqamətindən asılı olaraq qruplaşdırılır və annotasiya verilir.

MKS-də oxuculara soraq-biblioqrafiya xidmətinin əsas tərkib

hissələrindən biri də biblioqrafik ünvan arayışının yerinə yetirilməsidir. Məlumdur ki, biblioqrafik ünvan arayışının əsas vəzifəsi oxcuya məlum olan müəyyən bir sənədin və ya onun bir hissəsinin kitabxananın fondunda olub olmamasını və onun yerini müəyyən etməkdir. Adətən, biblioqraf sənədlər haqqında kifayət qədər dəqiq məlumata malik olur və buna görə də axtarışın necə və hansı mənbələr üzrə aparılacağı əvvəlcədən məlum olur.

Əgər bir kitab həmin kitabxanada yoxdursa, həmin ədəbiyyatın axtarılması üçün böyük elmi və xüsusi kitabxanaların yeni ədəbiyyat bülletenlərindən istifadə olunur.

Beləliklə, biblioqrafik ünvan sorğusunun nəticəsi, kitab fondunda sənədin saxlanması şifrəsi göstərilməklə verilən cavab-arayışdan ibarət olur, yaxud da sorğunun Kitabxanalararası Abonement (KAA) vasitəsilə digər kitabxanaya göndərilməsi ilə nəticələnir.

MKS-də Mərkəzləşdirilmiş Kitabxana Sisteminin soraq-biblioqrafiya xidmətinin tərkib hissələrindən biri də dəqiqləşdirmə arayışlarının yerinə yetirilməsidir. Oxucular çox zaman kitabxanaya ona məlum olan müəllifin adı, dəqiq yadında qalmayan əsərlərini, habelə onun əvvəllər istifadə etdiyi və hazırda ancaq mövzusu yadında qalan nəşri tapmaq üçün, məqalədə ədəbiyyat isnadını dəqiqləşdirmək üçünmüraciət edirlər. Bütün bu sorğuların dəqiq olmamasının əsas səbəbi oxucunun biblioqrafik savadının aşağı olması, biblioqrafik arayışlarda və mənbələrdəsəhvlərə yol verilməsi ilə izah olunur.

Sorğuda təhrif olunan təsvir elementlərinin dəqiqləşdirilməsi və çatışmayan elementlərin axtarılıb tapılması (müəllifin familiyası, əsərin sərlövhəsi, buraxılış məlumatları) biblioqrafik axtarışın ən çox yayılmış formasıdır.

MKS-in metodika və biblioqrafiya şöbəsinə daxil olan sorğular içərisində faktoqrafik sorğular-hər hansı bir faktın, hadisənin, tarixin müəyyən olunması haqqında sorğular da çoxluq təşkil edirlər. Faktoqrafik arayış bu və ya başqa bir obyekt, hadisə, proses haqqında daxil olan sorğulara verilir, birbaşa cavablardan (faktoqrafik məlumatlardan) ibarət olur.

Belə sorğular əsasən mütəxəssislərə xidmət edən mərkəzi kitabxanaya daha çox daxil olur. Çünkibelə kitabxanalarda oxucular dəqiq elmi faktların, tarixi hadisələrin, elmi baxışların axtarılması ilə daha çox məşğul olurlar. MKS-ninmetodika və biblioqrafiya şöbələri bütün sorğuları özünün soraq-məlumat ədəbiyyatı fondu vasitəsilə yerinə yetirir. Şöbələrdə məlumat kitabları və ensiklopediyalar üzrə faktoqrafik sorğuları ödəmək üçün təcrübəli biblioqraf ayrılmışdır. MKS-də biblioqrafik sorğular məlumat kitabları, ümumi və sahəvi ensiklopediyalar, ensiklopedik lüğətlər, sənədlər külliyyatları və s. bu kimi materiallar vasitəsilə yerinə yetirilir.

MKS-də oxuculara göstərilən biblioqrafik xidmətnövlərindən biri də biblioqrafik informasiya xidmətidir. Biblioqrafik informasiya xidmətinin əsas mahiyyəti ondan ibarətdir ki, kitabxanaya daxil olan yeni ədəbiyyat haqqında oxuculara müntəzəm və operativ məlumat verilsin. Qeyd etmək lazımdır ki,



MKS-də fərqləndirilməyən-yəni kütləvi biblioqrafik informasiya xidmətinin müxtəlif metodlarından geniş şəkildə istifadə olunur. Kütləvi biblioqrafik informasiya xidmətinin ən geniş yayılmış forması kitabxanaya daxil olan yeni ədəbiyyatın məlumat bülletenidir. MKS-də metodiki biblioqrafiya şöbələri sistemin vahid fonduna daxil olan yeni ədəbiyyatın məlumat bülleteni hazırlamışdır. Məlumat bülletenləri yeni daxil olmuş ədəbiyyatın miqdarından asılı olaraq əvvəlki illərdə hər rübdə hazırlanırdı. Son illər sistemə daxil olan ədəbiyyatın azlığını nəzərə alaraq ildə bir dəfə kitab fonduna daxil olan yeni ədəbiyyatın məlumat bülleteni adı ilə tərtib olunur. Bülletendə materiallar onluq təsnifat üzrə verilir, daxildə isə əlifba qaydasına riayət olunur. Məlumat bülleteni bütün kitabxana-filiallara göndərilir.

MKS-də tərtib edilən bülletenlərin qarşısında duran tələblər bunlardır: məlumatın tamlığı, dəqiq seçmə meyarı, materialların düzülüşündə sistemlilik, dəqiq və vahid biblioqrafik təsvir, məlumat annotasiyasının verilməsi, bülletenin hər bir buraxılışı üçün "giriş" məqaləsinin olması, yaraşıqlı xarici tərtibat və nəhayət kifayət qədər tiraj.

"Dövlət kütləvi kitabxanalarının mərkəzləşdirilməsi" haqqında "Əsasnamə"yə görə, bülletenlərin nəşri bütün MKS-lər üçün vacibhesab edilir.

Mütəxəssis oxuculara biblioqrafik informasiya xidmətinin bir çox üsullarından istifadə olunur. Mütəxəssis oxucuları ən çox sırf elmiədəbiyyat maraqlandırır. Bu ədəbiyyatlar isə kitabxanaya az nüsxədə daxil olur və lazım olan filialların hamısına göndərilə bilmir. Ona görə bu cür ədəbiyyatı mütəxəssislərin nəzər-diqqətinə çatdırmaq üçün mərkəzi kitabxanada sərgilər təşkil edilir. Bu sərgilər filiallarda da nümayiş etdirilir. Bu haqda əvvəlcədən filialın işçisi elan vasitəsilə oxculara məlumat verir. Mərkəzi kitabxanada mütəxəssis oxuculara biblioqrafik informasiya xidmətini yaxşılaşdırmaq üçün biblioqraf kitabxananın komplektləşdirmənin mövzu planı ilə tanış olur ki, il boyu şöbəyə daxil olan bütün biblioqrafik sorğulara dair kitabxanada olmayan ədəbiyyatın alınması üçün xüsusi səy göstərir.

Bildiyimiz kimi, biblioqrafik icmallar kitabxanalarda kitabın kütləvi təbliğinin ən geniş yayılmış formalarından biridir. Həm mərkəzi kitabxanalarda, həm də kitabxana-filiallarda bilioqrafik icmallar keçirilir. Keçirilən biblioqrafik icmallar görkəmli yazıçıların yaradıcılığına, elm və texnikanın, kənd təsərrüfatının müxtəlif sahələrinə, son illər isə Qarabağ probleminə, Şəhidlərə və Azərbaycan Demokratik Respublikasına həsr edilir.

Mərkəzi kitabxanalar həm filiallarda, həm də xidmət göstərdikləri idarə və müəssisələrdə "Məlumat günü" keçirirlər. "Məlumat günü" biblioqrafik materiallar da nəzərə alınmaqla, Mərkəzi Kitabxanaya daxil olan bütün ədəbiyyatın müntəzəm nümayiş etdirilməsi günüdür. "Məlumat günü"nün keçirilmə dövriliyi Mərkəzi Kitabxanaya daxil olan yeni ədəbiyyatın miqdarından asılıdır. "Məlumat günü" müntəzəm olaraq əvvəlcədən təyin olunmuş gündə keçirilir. Yeni daxil olan ədəbiyyat bir qayda olaraq oxu

zalında nümayiş etdirilir və bütün günü davam edir. Mərkəzi kitabxanaya daxil olan bütün materiallar məzmunlarına müvafiq seçilir və ilkin sənədlərlə bir yerdə nümayiş etdirilir.

Ümumiyyətlə, MKS-nin iş təcrübəsinin tədqiqi nəticəsində məlum olmuşdur ki, oxuculara biblioqrafik xidmət göstərilməsində kitabxananın soraq biblioqrafiya aparatından, məlumat bülletenlərindən, kitab sərgisi, mütəxəssis günü, sərgi-baxışlar və müxtəlif mədəni kütləvi tədbirlərdən geniş şəkildə istifadə olunur.

Nəticə. Qeyd etmək lazımdır ki, MKS-lərin biblioqrafik fəaliyyəti təkcə həmin sistemin çərçivəsində müvəffəqiyyətlə inkişaf edə bilməz. Başqa elmi informasiya orqanları ilə sistemin qarşılıqlı əlaqəsinin yaradılması mərkəzləşdirilmiş sistemdə biblioqrafik xidmətin düzgün təşkilinin ən mühüm şərtlərindən biridir.

Kompüter texnologiyasının kitabxana-biblioqrafiya proseslərinə tətbiqi, İnternet əlaqələrinin genişlənməsi, elektron informasiya daşıyıcılarının ildən-ilə artması MKS-lərdə də bu işlə məşğul olan şöbələrin açılması zərurətini yaratmışdır. Yeni açılmış bu şöbələrdə Kitabxana-Biblioqrafiya Proseslərinin Avtomatlaşdırılması işi həyata keçirilməklə, kitabxananın imkanlarından daha çox oxucunun istifadə etməsinə imkan yaranmışdır.

Ümumiyyətlə, Mərkəzləşdirilmiş Kitabxana Sistemində biblioqrafik fəaliyyətin daha səmərəli aparılması üçün aşağıdakı tövsiyyələrin nəzərə alınması məqsədəuyğun olardı:

1. MKS-lərin biblioqrafik fəaliyyəti inkişaf etmiş müasir cəmiyyətin tələbləri səviyyəsində qurulmalı, soraq biblioqrafiya aparatı-kataloq və kartoteka sistemi, soraq və biblioqrafik nəşrlər fondu yenilənməli, biblioqrafik vəsaitlərin nəşrinə diqqət artırılmalıdır.

2. Biblioqrafik xidmətin səviyyəsikökündən yeniləşməli, virtual xidmət sistemi tətbiq edilməli, bu məqsədlə oxucu qrupları daha dəqiq təsnifləşdirilməlidir.

3.MKS-lərdə biblioqrafik proseslərin avtomatlaşdırılması məsələsinə diqqət artırılmalı, fondun digər hissələrinin də elektron kataloqa daxil edilməsi üzərində iş sürətləndirilməlidir.

## Ə D Ə B İ Y Y A T


1. Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cüillərdə inkişafı üzrə "Dövlət Proqramı"// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi- nəzəri, metodiki və təcrübi jurnal. 2008, № 2, s.6-29.

2. Библиографическая работа в библиотеке: организация и методика. М., 1990, 256 с.

3. "Kitabxanaların fəaliyyəti haqqında" statistik müayinənin nəticələri barədə: Statistik bülleten /Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı, 2009, 86 s.

4. Xələfov A.A. Kitabxanşünaslığa giriş: Dərslik IIIhissə. Kitabxana işi haqqında təlim. Bakı, 2003, 313 s.





5. İsmayılov.X.İ. İsmayılov.N.İ. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının biblioqrafik informasiya təminatı.//Humanitar elmlərinöyrənilməsinin aktual problemləri: ali məktəblərarası elmi məqalələr məcmuəsi.-Bur.7.-Bakı: Mütərcim, 2007.-s.318-320.

Internet resursları

6.http://www.azlibnet.az/pdf/mksesasn.pdf.

7. http://www.cabmin.gov.az/az/pressreliz/view/569.


И.Байрамова

## ОСОБЕННОСТИ ОРГАНИЗАЦИИ БИБЛИОГРАФИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ В ЦБС

### РЕЗЮМЕ


В статье анализируется развития библиографической деятельности в ЦБС. Подробно изучены особенности организации СБА и библиографического обслуживания потребителей информации. А так же в статье изучено методы использование информационно коммуникативных технологий в библиографических процессах.


I.Bayramova

## THE FEATURES OF ORGANİZİNGOF BİBLİOGRAPHİCACTİVİTY İN CLS

### SUMMARY


In article, is analyzed the development of bibliographic activity in CLS . Cjmprehensively learned the features of organization CLS and the bibliographic service to information users. Also in article are learned methods of using of information communication technologies in bibliographic process.